***XXI əsr informasiya əsridir. Tarix boyu yaşanan müharibələr, imzalanan müqavilələr onu göstərir ki, bir dövlətin mövcudluğu, hərbi gücü, ordusunun fiziki və mənəvi hazırlıq səviyyəsi, şəxsi heyətin sayı ilə paralel olaraq, həm də dövlətin dövrün yeniliklərini, müasir texnologiyasını nə qədər mənimsəməsindən asılıdır.***

***Odlu silahların kəşfi ilə tarixə qarışan qılınc sənəti, fabriklərin kütləvi istehsala başlaması ilə əhəmiyyətini itirən əl sənətləri kimi, dövlət də əhalisinin çoxluğundan və ərazisinin böyüklüyündən asılı olmayaraq, özünü dövrün tələblərinə uyğunlaşdıra bilməsə, yox olub getməyə, xarici güclərə bağlı yaşamağa məhkumdur. Tarixdə bu qənaətin kifayət qədər sübutu mövcuddur. Buna əsaslanaraq, əminliklə demək olar ki, bütün bunlar düzgün və uzaqgörən idarəçiliklə birbaşa bağlıdır.***



# İnformasiya siyasətinə yeni strateji baxış

Azərbaycan xalqı keçən əsrin 90-cı illərinin əvvəllərində təsiri altında olduğumuz informasiya blokadasının hansı hadisələrlə nəticələndiyini yaxşı xatırlayır. Yenicə müstəqillik qazanan respublikamız səsini heç bir dövlətə, beynəlxalq təşkilata çatdıra bilmirdi. Məhz bu səbəbdən Azərbaycan başqa dövlətlərlə müqayisədə bu məsələyə daha çox həssaslıq və diqqət göstərməlidir. Buna görə də, biz daim çalışmalıyıq ki, həmin hadisələr heç vaxt unudulmasın və Azərbaycan bir də heç vaxt 90-cı illərin əvvəllərində düşdüyü aciz vəziyyətə düşməsin.

Ulu öndər Heydər Əliyevin hakimiyyətə gəlməsi ilə beynəlxalq aləmdə tanınmağa, nüfuz qazanmağa başlayan Azərbaycanda, elə həmin illərdən informasiya siyasətinə xüsusi diqqət ayrılmışdır. Xalqın məlumat almaq hüququnu daim yüksək qiymətləndirən Heydər Əliyevin bu istiqamətdə təməlini qoyduğu siyasətin əsas məqsədləri insanların məlumat almaq, onu yaymaq və istifadə etmək hüquqlarının genişlənməsi idi. Ümummilli liderin təşəbbüsü ilə həyata keçirilən silsilə tədbirlər nəticəsində Azərbaycanda bu sahə üzrə kifayət qədər nailiyyət əldə olunmuşdur.

XXI əsrin ən böyük sərmayəsi informasiya, bilgi hesab edilə bilər. Bu dövr kənd təsərrüfatı və sənaye inqilablarından sonra sosial və iqtisadi həyatın formalaşmasında yeni informasiya inqilabı dövrü kimi qiymətləndirilməlidir. Daha əvvəl qeyd olunduğu kimi, iqtisadi-siyasi, o cümlədən, hərbi cəhətdən güclü dövlət olmaq, dövrün tələbləri ilə ayaqlaşmaqdan asılıdır.

Tarixin fərqli mərhələlərində qarışıq və xalq üçün həyati vaciblik kəsb edən dövrlərdə, bütün problemlərin öhdəsindən gələn, millətin aqibətini müəyyənləşdirən, dövlət idarəçiliyində müstəsna fəaliyyət göstərən liderlər yaşamışlar. Bu şəxslərin həyat yolunu təqib etdikdə mənsub olduqları millətin mənəvi keyfiyyətlərini də müəyyən etmək mümkün olur. Vətən müharibəsi bir daha göstərdi ki, Azərbaycan belə bir tarixi şəxsiyyətə sahibdir. Prezident İlham Əliyevin rəhbərlik etdiyi Azərbaycan daim müasirləşən, iqtisadi, sosial, siyasi, o cümlədən, humanitar sahədə inkişaf edən ölkəyə çevrilmişdir. Onun irəliyə baxan idarəetmə qabiliyyəti ilə ölkəmiz bu gün, iqtisadi-siyasi cəhətdən tam müstəqil dövlətdir. Respublikamız dövlət-vətəndaş birliyinin, siyasi sabitliyin yüksək səviyyədə təmin edilməsi ilə dünyaya bu sahədə nümunə olan ölkələrdən biridir.

Məlum olduğu kimi, II Qarabağ müharibəsində qazandığımız tarixi zəfərlə əzəli torpaqlarımız işğaldan azad olundu. Azərbaycan həm döyüş meydanında, həm də siyasət masasında inamlı qələbə qazandı. Hər bir azərbaycanlı üçün böyük iftixar hissi doğuran bu müharibə, həmçinin dövlətimizin necə uzaqgörən, daxili və xarici siyasət məsələlərinə vaqif olan liderə sahib olduğunu da bütün dünyaya sübut etdi.

Prezident İlham Əliyev müharibənin başladığı ilk gündən etibarən, tez-tez xalqa müraciət edərək, döyüş meydanında baş verənlər, o cümlədən, ordumuzun azad etdiyi ərazilər barədə məlumatları əhaliyə çatdırırdı. Bununla yanaşı, dünyanın diqqətinin Qarabağ müharibəsinə yönəldiyi bir vaxtda ölkə başçısı 30-a yaxın aparıcı xarici media qurumuna müsahibələr verdi. “France 24”, “BBC NEWS”, İspaniyanın EFE informasiya agentliyi, İtaliyanın “La Repubblica” qəzeti, Almaniyanın ARD və Türkiyənin Haber Global kanalları bu nüfuzlu media qurumlarındandır. Bütün çıxışlarında Azərbaycanın haqq işini ləyaqətlə dünyaya çatdıran Prezident İlham Əliyev ölkəni beynəlxalq arenada yüksək səviyyədə təmsil etdi.

Müsahibələrin bəzilərində ermənipərəst qüvvələrin dəstəyi ilə qərəzli mövqedən çıxış edən, Ermənistanı dünyaya məzlum xalq, əzilən dövlət kimi nümayiş etdirməyə çalışan jurnalistlərin səsləndirdiyi qərəzli fikirlər də Ali Baş Komandan tərəfindən məharətlə dəf edildi.

Bu çıxışlar Azərbaycan xalqının zəfərə, mütləq qələbəyə olan inancını daha da qüvvətləndirir, xalqımız üçün böyük fərəh hissi yaradırdı.

Müharibənin bitməsindən sonra da xarici mediada həqiqətlərin dünyaya olduğu kimi, tərəfsiz çatdırılması naminə bir çox işlər görüldü. Tədbirlər, konfranslar keçirildi. Belə tədbirlərdən biri də, 26 fevral Xocalı soyqırımı günündə, yerli və xarici media nümayəndələri üçün keçirilən mətbuat konfransı idi.

100-dən çox xarici jurnalistin qatıldığı konfrans həm də 24 telekanal vasitəsi ilə bütün dünyada canlı yayımlandı. Dörd saat davam edən konfrans barəsində danışan jusnalistlərdən biri qeyd etdi ki, Prezident İlham Əliyev, hətta su içmək üçün belə fasilə vermədən, 4 saat jurnalistlərin 4 dildə olan suallarını cavablandırdı. Həmçinin, konfransda çıxış edən ingilis əsilli jurnalist  Aynur Tattersall bildirdi ki, 25 ildir jurnalistlik fəaliyyəti göstərir, müxtəlif ölkələrdə mətbuat konfranslarında iştirak edib. Lakin ilk dəfədir ki, bir liderin 4 saat fasiləsiz olaraq və bütün sualları səsləndirildiyi dildə cavablandırdığının şahidi olur.

Qlobal Jurnalistlər Şurasının sədri Mehmet Ali Dim isə 4 saatlıq mətbuat konfransı ilə bağlı qeyd etdi ki, heç vaxt bu qədər səbirli lider görməyib: “Mən hələ belə səbirli lider görməmişəm. Bütün suallara səmimi cavab verdi. Azərbaycan xalqı çox şanslıdır. Bu cür lider hər ölkəyə nəsib olmaz”.

2021-ci il aprelin 13-də Prezident İlham Əliyev ADA Universitetində keçirilən “Cənubi Qafqaza yeni baxış: münaqişədən sonra inkişaf və əməkdaşlıq” adlı beynəlxalq konfransda da iştirak etdi. Ölkə başçısı Azərbaycan xalqının, o cümlədən dünyanın erməni qəsbkarlarının törətdiyi vəhşilikləri unutmamasının vacibliyindən danışdı. Ölkəmizdə və o cümlədən, regionda görüləcək işlərdən bəhs edən Prezident qeyd etdi ki, biz, eyni zamanda, gələcəyə baxmalıyıq. Görüşdə dünyanın aparıcı beyin mərkəzlərinin nümayəndələri – hansı ki, onlar öz ölkələrində, eləcə də, dünyada siyasi fikrə, ictimai rəyə təsir edən, nüfuzlu şəxslərdir – iştirak etdilər və fikir bildirdilər. Məhz bu faktlar Prezident İlham Əliyevin informasiya strategiyasına və ümumilikdə, informasiya sahəsininin inkişafına verdiyi önəmin göstəricisidir.

***İmran ƏLİYEV,***
***“Xalq qəzeti”***